

■ VİDADİ BABANLI

## HƏYAT EŞQİ

*(İsa Muğannanın əziz xatirəsinə)*

Ah, necə qısadı ömrümüz, Allah!
Bir göz qırpımında tükənir günlər.
İnsana bəs deyil yüz yaş da, vallah,
Qovurur  ürəyi bu dağ-düyünlər.

Şirindən-şirinmiş keçilmiş illər,
Duyuruq tamını fəqət sonradan.
Kamına yetməmiş köçür nəsillər,
Nədən qəzəblidi bizi yaradan?!

Bəlkə hayıfını çıxır o bizdən
Şeytana aldanmış həzrət Adəmin?
Cəhənnəmi öncə göstərir qəsdən
Salıb bolluğuna qüssənin-qəmin.

Haqq yolunu çoxdan itirib bəşər,
Haram qazanclara təkan axtarır.
Gizlin hökmrandı yer üzündə şər,
Dahilər göylərdə məkan axtarır.

Doyunca yaşasaq pismi olardı,
Düzlüklə çatardıq hər arzu-kama.
Müdriklər dünyada gec qocalardı,
Şairlər gələrdi yeni ilhama.

Bağışla, küfr etdim, adil Allahım,
Qarışdım işinə böyük ərklə mən.
Başımı yarmasın qoy bu tamahım,
Aciz dilək idi, keçdi könlümdən.

*6 may, 2014-cü il.*

## ATA HAQQI

Çox deyirik, çox yazırıq anadan,
Mərd atanı unuduruq, anmırıq.
Qadınları vəsf etmişik binadan,
Kişini öyməyi lazım sanmırıq.

Ata pul qazanır güzəran üçün,
Dözür hər əzaba, hər əziyyətə.
Bəzən ağlayır da o, için-için,
Ağrılı-acılı bu vəziyyətə.

Vaxt olur, bəxt oxu daşlara dəyir,
Cibdə siçan gəzir, iş düşür nəsə.
Rəzil bəndələrə gedib baş əyir,
Söyləmir dərdini evdə heç kəsə.

Uşaqlar böyüdür ləyaqət ilə,
Bundan qürur duyur, fərəh keçirir.
Ulu adətlərə sədaqət ilə
Gəlinlər gətirir, qızlar köçürür.

Həm də keşik çəkir müqəddəs yurda,
Hər qarış torpağa cavabdehdi o.
Çalışır verməsin quzunu qurda,
Ucalarda tutur andı, əhdi o.

Rahat nəfəs dərir, dincəlir bir az,
İlləri ötürüb yaşa dolanda.
Əməli salehin əməyi batmaz,
Papağı yan qoyur baba olanda.

Atanın qədrini vacibdi bilək,
Onun soyadını daşıyırıq biz.
Zəhmətin haqqını, gəlin, tən bölək,
Ana da əzizdi, ata da əziz!

*10 dekabr, 2014-cü il.*

## İKİ SƏKKİZ

Soruşdun yaşımı, qoy deyim xəlvət:
Düzmüşəm yan-yana iki səkkizi.
Xoşbəxt bəndəsiyəm tanrımın, əlbət,
Dəqiq cavabımda yoxdur şəkk izi.

Böyük şərəf duyar, şadman olardım,
Üçüncü səkkizi tamamlasaydım.
Bu ömür payımdan məmnun qalardım,
Fəxri salnaməyə düşərdi adım.

Agah ol mətləbdən, əziz oxucum,
Bədxahım hər yerdə haqqımı dandı.
Axtarsan tapılmaz bir ciddi suçum,
Məni şux yaşadan təmiz vicdandı.

*6 yanvar, 2015-ci il*

## DAHA

Səksən çoxdan ötüb, doxsan öndədi,
Qocaman adına nailəm daha.
Boy atır, maşallah, nəvə-nəticə,
Bir çətən külfətdi ailəm daha.

İndi ayrı əyyam, bir özgə çağdı,
Tökülüb gur saçlar, saqqal dümağdı.
Danılmaz səhvlərim sinəmə dağdı,
Arvad danlağına qailəm daha.

Ah, nə miskin imiş ahıllıq idmi!
Anladım gərdişi, bildim həddimi.
Ehtiyac  mum edib məğrur qəddimi,
Məcburam yay kimi əyiləm daha.

Dünyada hər şeyin öz müddəti var,
Vaxt gəlir qurdlayır dağ başında qar.
Məndən yeni uğur ummayın, dostlar,
Əvvəlki Babanlı deyiləm daha.

*5 noyabr, 2014-cü il*

## KÜSƏYƏN GÖZƏLƏ

Xeyli vaxtdı küsüb gendə gəzirsən,
Xətrinə dəyəsi nə söz demişəm?
Doğrayır bağrımı, deşir köksümü,
Naz-qəmzə tiyəsi, nə söz demişəm?

Pis günümdə  heç kəs məni anmadı,
Halıma acıyıb qəlbən yanmadı.
Çox arzum gül açıb nağdılanmadı,
Eşqimin nisyəsi, nə söz demişəm?

Köhnə Babanlıyam, tükənib heyim,
Zalım qocalıqdan boldu gileyim.
Qurtarıb dövranım, daha neyləyim,
Ay insaf yiyəsi, nə söz demişəm?

*25 sentyabr, 2014-cü il*

## MƏN NƏ HAYDA, SƏN NƏ HAYDA

Qəşəng xanım, baxma süzgün,
Mən nə hayda, sən nə hayda.
Əhvalımı anla düzgün,
Mən nə hayda, sən nə hayda.

Qocalıq əyib belimi,
Lal edib ötkəm dilimi.
Hər işdən üzüb əlimi,
Mən nə hayda, sən nə hayda.

Gəlib önümdə durursan,
Qaş oynadıb, göz vurursan.
Özünü nahaq yorursan,
Mən nə hayda, sən nə hayda.

Mürvət elə, gəl insafa,
Babanlıya vermə cəfa.
Zaya dönüb zövqü-səfa,
Mən nə hayda, sən nə hayda.

*30 yanvar, 2014-cü il.*

## AX, BU SAQQAL!

Yamanca üz qarasıymış
Ax, bu saqqal, ax bu saqqal!
Kişiləri yorasıymış
Ax, bu saqqal, ax bu saqqal!

Ülgüclənir üç gündən bir,
Kar eləmir başqa tədbir,
Qocalıqla olub əlbir
Ax, bu saqqal, ax bu saqqal!

Hara qaçım mən əlindən?
Qəm boylanır hər telindən.
Uzaq salıb qız-gəlindən
Ax, bu saqqal, ax bu saqqal!

Babanlı şən oğlan idi,
Papağı daim yan idi.
Fağırladıb onu indi
Bu ağ saqqal, bu ağ saqqal!